Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon MKS-nin M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasında "Yaradıcı oxucular" layihəsi uğurla həyata keçirilir. Mərkəzi Kitabxananın Fəxri oxucusu, M.V.Lomonosov adına Şimali Arktika Federal Universitetinin professoru, fəlsəfə elmləri doktoru Mixail Opyonkov və Yasamal rayon MKS-nin direktoru, tarix üzrə fəlsəfə doktoru, Fəxri mədəniyyət işçisi, AJB-nin üzvü Lətifə Məmmədova ilə birgə yazdıqları Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, birinci xanım Mehriban Əliyevanın yubileyinə həsr olunmuş məqaləni oxucuların diqqətinə çatdırırıq. Məqalədə Mehriban xanım Əliyevanın siyasi, xeyriyyəçilik, təhsil və mədəni fəaliyyətinin genişliyi və çoxşaxəliliyi aydın şəkildə vurğulanır. Müəlliflər qeyd edirlər ki, milli mədəniyyətin inkişafına dərin qayğı göstərən Mehriban xanım Azərbaycan mədəniyyətinin təcəssümü və simvoludur. Mehriban Əliyevanın Qərbin rəqəmsal təfəkkürü ilə milli ənənənin gücü arasında "qızıl orta" tapdığı da deyilir. Burada oxucuya Mehriban xanımın həyatının əsas etik prinsipi təqdim olunur: "Heç vaxt, heç bir halda ləyaqətinizi itirməyin, öz vicdanınızla sövdələşməyə getməyin. Özünüzlə barışdığınız zaman həyat daha asan olar. Biz yaxşı başlanğıcların mənbəyi olmağa çalışmalıyıq. Biz daha çox yaxşı işlər görməyə çalışmalıyıq".

"Mehriban Əliyeva: Azərbaycan dövlətçiliyinin və mədəniyyətinin rəmzi"

Azərbaycanın Birinci vitse-prezidenti, Azərbaycanın birinci xanımı, çox hörmətli Mehriban xanım Əliyevanın şəxsiyyətindən söhbət açarkən onun geniş və çoxşaxəli siyasi, xeyriyyəçilik fəaliyyətini, təhsil və mədəniyyət sahəsində xidmətlərini qeyd etmək yerinə düşərdi. Milli mədəniyyətin inkişafına misilsiz qayğı göstərən Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyətinin təcəssümü, rəmzi hesab olunur. Rəmz isə haqqında uzun-uzadı və səmərəli düşünə biləcəyimiz bir fenomendir.

Tarix öz hadisələrinə görə şəxsiyyətlərüzəri (transpersonal) bir məfhum olsa da, bu, yalnız zahirən belə görünür. Tarixin axarını görkəmli xarizmatik şəxsiyyətlərin əməlləri və fəaliyyətləri formalaşdırır. Azərbaycan tarixinin trayektoriyasını isə cənab Prezident və Mehriban xanım Əliyeva şəkilləndirir. Bu iki şəxsiyyətin iş birliyi müasir Azərbaycanın tarixində bir fenomen təşkil edir. Azərbaycan dövlətçiliyinə düşmən kəsilənlərin tələşlı təxribatlarına baxmayaraq, yaxın gələcəkdə əldə edilə biləcək bütün nailiyyətlər onların bu genişspektrli fəaliyyətinin bəhrəsi olacaqdır.

Mehriban Əliyeva hesab edir ki, istənilən bir cəmiyyətdə ən geniş mənada mərhəmətin, insanpərvərliyin, qayğının, xeyirxahlığın çiçəklənməsi universal bir normadır. O, bu dəyərləri dövlət siyasəti ilə əlaqələndirərək dərin bir nəticə çıxarır: inkişaf etmiş uğurlu cəmiyyət yalnız sözgedən sosial duyğuların təşviqi və dəstəklənməsi zəminində mümkündür. Yeganə məqbul hesab edilən proqram burada siyasətin özəyi kimi təsvir edilir. Dövlət xadimi kimi Mehriban xanım Əliyeva iqtisadi münasibətlərin sosiallaşmasından tutmuş birgə amalın formalaşması prosesində vətəndaşların həmrəyliyinə qədər, qlobal hadisələr zamanı həmvətənlərinin ləyaqətli yaşaması haqqında müasir təsəvvürü ifadə edir.

Mehriban xanımın sözlərinə görə, "Azərbaycan müasir, dünyəvi, müsəlman dövlətidir. Çox tolerant bir ölkədir, burada müxtəlif dinlərin nümayəndələri rahat yaşayırlar. Belə bir dövlətin nümunəsi Şərq

ilə Qərb arasında dialoq baxımından çox önəmlidir".

Mehriban Əliyevanın fikrinə görə, insanların yaxınlaşması üçün geniş imkanlar yaradan kommunikasiya vasitələrinin artmasına baxmayaraq, reallıqda sosial laqeydliyin getdikcə artması, insanlar arasında uçurumun genişlənməsi müşahidə olunur və bu dövrümüzün ən təsirli təzadlarından biridir. Bu gün dünyanın üzləşdiyi ən böyük problem müasir cəmiyyətlərin dərin mənəvi böhranıdır ki, bu da özünü həyatın həqiqi ideallarının saxta ideallarla əvəz olunması və nəticədə insanların sosial cəhətdən yadlaşması ilə birləşə verir. Onun mətnlərində təbii ki, hazır reseptlər yoxdur, lakin Mehriban xanıma təsvir olunan əxlaqi reallığa tamamilə zidd olan ideallara yönəlmiş şüurlu yaşam nümunələrinin məlum olduğunu nəzərə alaraq, bu reseptlərin orada olduğunu bilirik. Optimizmin mənşəyi də məhz buradan qaynaqlanır.

Mehriban xanım ISESCO-nun xoşməramlı səfiridir. Xoşməramlı səfirin vəzifəsi İslam dünyasının malik olduğu imkanları elm, mədəniyyət və təhsil vasitəsilə dünyaya göstərməkdir.

Dünyanın 57 ölkəsini birləşdirən ISESCO son dərəcə nəcib bir missiyanı yerinə yetirir. Təşkilatın əsas məqsədi ölkələr arasında elm, təhsil və mədəniyyət sahəsində əlaqələrin qurulması və geniş vüsət alması, xalqlar arasında dialoqun yaradılmasıdır. Bu isə öz növbəsində sülhün, təhlükəsizliyin və əmin-amanlığın təminatı deməkdir. Fəaliyyət göstərdiyi 24 il ərzində İslam Ölkələrinin Elm, Təhsil və Mədəniyyət Təşkilatı çox böyük işlər görüb, böyük nailiyyətlər əldə edib. Müsəlman ölkələrində elmin, təhsilin, mədəniyyətin inkişafı istiqamətində genişmiqyaslı layihələr və proqramlar həyata keçirilir. Onu da qeyd etmək lazımdır ki, ISESCO öz fəaliyyətini təkcə müsəlman ölkələri ilə məhdudlaşdırmır. Dünyada elə ölkələr, elə dövlətlər var ki, orada müsəlmanlar əhalinin 10, 20, 30 faizini təşkil edir. ISESCO həmin ölkələrlə də çox sıx əməkdaşlıq edir, proqramlar hazırlayır, elmin, mədəniyyətin və təhsilin inkişafı üçün kreditlər, qrantlar ayırır.

ISESCO-nun digər çox mühüm fəaliyyət istiqaməti islam dünyasının zəngin tarixi irsinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsidir. Bu gün bəzi müsəlman dövlətlərində müharibə getdiyi şəraitdə bu cür fəaliyyət xüsusi əhəmiyyət kəsb edir. Bundan əlavə, İslam sivilizasiyalarının yaradıcı potensialı heç də tükənməmişdir.

Dünyada unikal geosiyasi mövqeyə malik olan Azərbaycan Şərqlə Qərb arasında bir növ mədəni ideyalar portalına çevrilir. Mədəniyyətdən bəhs etmək indi əvvəlkindən daha vacibdir. Mədəniyyətlər qlobalizmi onların yaşaması üçün birbaşa təhlükə qəbul edirlər. Bütün dünya eyniləşərsə və biz vahid bir planetar mədəniyyət formasında mövcud olmağa başlayasaq, o zaman biz, bizi formalaşdıran mədəni kimliyimizi itirərik. Heç bir mədəniyyəti öz koduna qarşı getməyə nəcbur etmək olmaz. Demək olar ki, bu gün mədəniyyət kodu qlobalizmə qarşı durur.

Fikrimizcə, hörmətli Mehriban xanımın fəlsəfi axtarışlarının məğzi, insan varlığının əbədi etik problemlərini heç bir şəkildə həll etməyən Qərbin rəqəmsal təfəkkürü ilə qorunub saxlandığı halda ekzistensial seçimin kritik anında həmişə köməyə gələcək olan milli ənənələrin gücü arasında "qızıl ortanı", yəni ortaq məxrəci tapmaqdır. Axı, ənənənin yalnız donmuş, adətlər ilə təqdis olunan normalar, fikirlər və obyektlər məcmuəsi olduğuna inanmaq bir sadəlövhlük olardı. Ənənələrin kreativliyini, qlobal problemlər labirintində öz orijinal yolunu tapmaq üçün nəhəng yaradıcı potensialını nəzərdən qaçırmamalıyıq.

"Tarixin sonu" kimi dözülməz bir dünya yaranır, bizim tariximiz isə davam edir. Biz bu tarixi Vətənə, xalqa xidmətimizin hər anı ilə yazırıq. Mehriban xanım belə bir xidmətin əsl fədaisidir.

Mehriban xanım canlı təmsilçisi olduğu Azərbaycan siyasi mədəniyyətinin zahiri paradoksallığı dövlət maraqlarının qorunmasında modernizmin və ənənəviliyin, universalizmin və milli qürurun, tolerantlığın və prinsipiallığın xüsusi sinergetikasından, alternativlərin nəzərə alınmasından və gələcəyin aydın şəkildə strateji planlaşdırılmasından ibarətdir. Biz həmçinin çoxmilletli xalqımız daxilində dünyagörüşü fərqlərinin dünya səviyyəli zəka ilə ahəngdar şəkildə uzlaşan bir müdrikliklə aradan qaldırıldığını görürük.

Mehriban xanım Əliyevanın fikrincə, istənilən qadın həyatına bağlı olan öhdəliklərin əsarətindən onu azad edən, Azərbaycanın müasir dövründə dominant olan emansipasiya idealına söykənən hər hansı bir statusdan asılı olmayaraq qadın olaraq qalır. Bu, dövlət xadiminin qürur duyduğu bir nailiyyətdir. Onun qürur duyduğu bu nailiyyət qadının radikal İslam qanunlarına geri qaytarılması cəhdlərinə qarşı bir sədd olduğunu düşündürür.

"Mədəniyyət" sözünün mənası "becormək" deməkdir. Siseron tarlanı (ager) və ruhu (animus) müqayisə edirdi. İşlənməmiş tarla (sine cultura) və tərbiyə edilməmiş ruh (sine doctrina) səmərəsiz olaraq qalır. Fəlsəfə qüsurları aradan qaldıran və ruhu nəcib əkinlərə hazırlayan ruhun işlənməsidir. Qüsurlar təbii səbəblərdən, onların aradan qaldırılması isə insanın iradəsindən asılıdır.

Əlbətdə ki, ailə insanın ruhunun formalaşmasında əsas rol oynayır. Mehriban xanım xatırlayır ki: "Biz milli köklərimizi, adət-ənənələrimizi, insanlarla ünsiyyət qurmağı öyrənirdik, bizə nəyin real, nəyin isə illüziya olduğunu başa salırdılar. Ailədə başa düşməyə başladıq ki, dürüst və ləyaqətli olaraq qalmaqla həmişə qazanan biz olacağıq. Bizə gözəl zövq aşılanır və mənəviyyatın həmişə maddiyatdan daha dəyərli olduğu dərk etdirilirdi. Bizə aydın, düzgün həyat təlimatları verilirdi. Yetkin həyatımızın bütövlükdə təməli məhz o vaxt, uşaqlıqda, həmin bu ailə mühitində qoyulmuşdur. Bütün bunlar ailəmizin yaşlı nəslinin məziyyətidir".

Bu, onun həyatının əsas etik prinsipini formalaşdırdı: *"Heç vaxt, heç bir halda ləyaqətimizi itirməməliyik, öz vicdanımızla sövdələşməyə getməməliyik. Özümüzlə barışdıq olduğumuz zaman həyat yaşamaq üçün daha asan olur. Xoş məramlı olmağa çalışmalıyıq. Daha çox yaxşı işlər görməyə tələsməliyik".*

Ruhunun formalaşmasında ikinci mühüm amil olaraq Mehriban xanım Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevlə uzun illər ünsiyyətini qeyd edir. Mehriban xanım haqlı olaraq Heydər Əliyevin "Müzəffər olub Müzəffər də getdiyini" bildir.

Mehriban xanımın şəxsi xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, qeyri-adi bir vəziyyətdə onun təbiəti son dərəcə iradə sərfərliyi ilə reaksiya verir. Bu, böyük və zəfərli işlər üçün yaradılan insan keyfiyyətidir.

20 ildir Mehriban Arif qızının uğurla rəhbərlik etdiyi Heydər Əliyev Fondu gələcəkdə Azərbaycan siyasətinin beyin mərkəzinə çevriləcəkdir. Avrasiya və Qərb (Avro-Atlantik) sivilizasiyalarının mədəni orijinallığı hələ uzun illər gündəmdə duran aktual məsələ olacaqdır. Mənəvi dəyərlər sistemini yaratmadan və inkişaf etdirmədən, dünyəvi ideologiya formalaşdırmadan suverenliyi qoruyub saxlamaq mümkün olmayacaq. Bilik və hakimiyyət imkanlarının sintezinə malik olan bu Fond dövlət siyasətinin işlənib hazırlanmasında mənəviyyatı və iradəni birləşdirən, cəmiyyət üçün aydın və anlaşılan bir mərkəzə çevriləcəkdir.

Milli ənənələr cismimizə və qanımıza qarışır, təbii qəbul olunur və demək olar ki, nəzərə çarpmır. Lakin digər mədəniyyətlərin nümayəndələri ilə görüşəndə kimliyimizi dərindən dərk edirik.

Yalnız intellektual, mədəni, mənəvi cəhətdən inkişaf etmiş elitalar milli ənənənin ən yüksək, fəlsəfi mənasını dünyaya orijinal inkişaf yollarını və öz mədəni statusunu təklif edən xüsusi bir sivilizasiyanın təməli kimi dərk edə bilirlər. Mehriban xanım da belə uzaqgörən insanlardan biridir.

Mehriban Əliyevanın dünyanı, xalqların, insanların taleyini romantik qavrayışı var. Bu romantizmin mənşəyi onun valideynlərinin və yaxınlarının yaşadığı müasir cəmiyyətdən qaynaqlanır. Onun dünyanı romantik qavrayışını qoruyub saxlaması dünyada cərəyan edən və təbii ki, Azərbaycandan da yan keçməyən fəvqalədə hadisələr dövründə həqiqətən dəyərli bir bacarıqdır.

Mehriban xanım Əliyeva deyir ki, mənim dünyanı dəyişmək kimi arzum yoxdur, sevdiyim işlərlə məşğul olmaqla özümü dəyişmək mənim üçün daha maraqlıdır. Bu ifadənin özəyi onun uşaqlıqdan böyüdüyü, dünyanı dərk etdiyi, öz milli varlığında təbii olduğu dövrdən qaynaqlanan düzgün bir düşüncəni ehtiva edir. Dünyanı özlərini dinamik cəmiyyətin normalarına uyğun olaraq dəyişən şəxsiyyətlər dəyişdirir. İş ilə məşğul olan, böyük imkanlara malik insanlar mühiti, ümumilikdə cəmiyyəti də dəyişirlər.

Mehriban xanımın Prezidentin ətrafında birləşmək bacarığı xalqın sosial-mədəni modelinə "tikilib". Konkret olaraq isə Mehriban xanımı birinci şəxsdən fərqləndirmək asan deyil. Bütünləşmə və qarşıxanımın imicinə biganə deyil. Və əlbəttə ki, qürur duyduğumuz çox şey var: Mehriban xanım fərdi "geyim" obrazı olaraq autfitin yaradılmasında incə zövqünü nümayiş etdirir.

Azərbaycanın birinci xanımının paylaşımları yaxın illərdə Azərbaycanda və bütün Avrasiya məkanında böyük tarixi rol oynayacaq bir insanın daxili dünyası haqqında məlumat xəzinəsidir. O, müasir Azərbaycanın - xalqın tarixində parlaq bir dövrün əvladıdır. Bizim üçün hər şey qarşıdadır, keçmişimizi xatırlayaraq daim irəli gedirik. Mehriban Əliyevanın çıxışları da bundan bəhs edir, dövrün irsinin onun şəxsi mədəni seçimləri haqda düşüncələrini əks etdirir.

Onun sözləri hərəkəti ilə birlikdə dərin simvolik xarakter daşıyır. Bu, hakimiyyətin Heydər Əliyevin adı ilə gələcəyə addımlamasıdır. Bu, şəxsən əvəzolunmaz Mehriban xanımın Müzəffər Prezidentlə tandemdə təcəssüm olunmuş tarixi əlaqədir.

Azərbaycanın Birinci vitse-prezidentinin davranış tərzi Azərbaycanda tamamilə yeni bir fenomendir. Burada formallıqdan əsər-əlamət yoxdur. Şəninə tərifləri bəzənəlik də bu silsilədəndir. Prezident cütlüyü gücə pərəstiş hallarını dəstəkləmir.

L.N.Qumilyovun terminologiyasından istifadə etsək, Mehriban xanım Əliyeva özünü ideyaya, öz xalqına xidmətə həsr etmiş, milli mədəniyyəti yeni nailiyyətlərə apara bilən, müasir dövrün qlobal çağırışlarına cavab olaraq ona lazımi dinamizm bəxş edə bilən passionarilər tipinə aiddir.

Mixail Opyonkov,
fəlsəfə elmləri doktoru,
M.V.Lomonosov adına
Şimali Arktika Federal
Universitetinin professoru
Lətifə Məmmədova,
tarix üzrə fəlsəfə doktoru,
AJB-nin üzvü, Fəxri
mədəniyyət işçisi